**«TƏSDİQ EDİLMİŞDİR»**

Azərbaycan Respublikasının Prezidenti

yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi

Əmr 140

«29» avqust 2000-cı il

Sədr _______________ H. Babayev

(02 iyul 2004-cü il tarixli 097 №-li Əmrin redaksiyasında)

# Qarşılıqlı öhdəliklərin müəyyən edilməsi üzrə fəaliyyətin (klirinqin) həyata keçirilməsi Q A Y D A L A R I

## I. Ümumi müddəalar.

1.1. Bu Qaydalar "Qiymətli kağızlar haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Prezidentinin 26 iyul 1999-cu il tarixli 161 saylı Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında" Əsasnaməyə və Azərbaycan Respublikası Prezidentinin 8 noyabr 1999-cu il tarixli 202 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Qarşılıqlı öhdəliklərin müəyyən edilməsi üzrə fəaliyyətə (klirinqə) xüsusi razılıq (lisenziya) verilməsi" Qaydalarına müvafiq olaraq hazırlanmışdır.

1.2. Bu Qaydalar qarşılıqlı öhdəliklərin müəyyən edilməsi üzrə fəaliyyətə (bundan sonra - klirinq) olan tələbləri və bu fəaliyyətin həyata keçirilməsinin qaydalarını müəyyən edir.

1.3. Bu Qaydalar fyuçerslər və opsionlar üzrə klirinqə şamil edilmir.

## II. Əsas anlayışlar.

2.1. Bu Qaydaların məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə edilir:

2.1.1. Klirinq - qiymətli kağızların göndərilməsi üzrə qarşılıqlı öhdəliklərin müəyyən edilməsi (qiymətli kağızlarla əqdlər üzrə məlumatın toplanması, yoxlanması, təshih edilməsi və onlar üzrə mühasibat sənədlərinin hazırlanması), bu öhdəliklərin hesaba alınması və qiymətli kağızlar üzrə hesablaşma aparılması;

2.1.2. klirinq təşkilatı - klirinq fəaliyyəti ilə məşğul olmaq üçün Azərbaycan Respublikasının Prezidentinin yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsindən müvafiq lisenziya almış hüquqi şəxs;

2.1.3. klirinq iştirakçısı - qiymətli kağızlarla əqdlər üzrə klirinqin həyata keçirilməsi üçün klirinq təşkilatı ilə müqavilə bağlamış şəxs;

2.1.4. nettinq - qiymətli kağızlarla bağlanmış əqdlər üzrə eyni tipli qarşılıqlı tələb və öhdəliklərin əvəzləşdirilməsi yolu ilə klirinq iştirakçılarının yekün tələb və öhdəliklərinin müəyyən edilməsi.

2.1.5. müvafiq kredit təşkilatı - klirinq təşkilatı tərəfindən verilən tapşırıqlara əsasən klirinqin nəticələrinə görə klirinq iştirakçılarının pul vəsaitləri üzrə hesablaşmaları aparan kredit təşkilatı.

III. Klirinq fəaliyyətinin həyata keçirilməsinin şərtləri

3.1. Klirinq təşkilatının minimal nizamnamə fondu 50 000 000 (əlli milyon) manat məbləğində müəyyən edilir.

3.2. Klirinq təşkilatı aşağıdakı vəzifələri yerinə yetirməlidir:

3.2.1. klirinq iştirakçılarının hesablarının ayrı-ayrılıqda aparılması;

3.2.2. sərəncamında olan məlumatların məxfiliyinin təmin edilməsi, onların qeyri-qanuni istifadəsindən, təhrif edilməsindən qorunması.

3.2.3. klirinq iştirakçısı tərəfindən bağlanmış əqdlər üzrə hesablaşmaların aparılmasının təmin edilməsi;

3.2.4. klirinqin nəticələri haqqında sənəd və məlumatların 5 il ərzində saxlanılmasının təmin edilməsi.

3.2.5. klirinqi aparılmış əqdlərin icrası ilə bağlı yaranmış risklərin idarəedilməsinin təmin edilməsi;

3.2.6. zəmanət fondunun yaradılmasının təmin edilməsi;

3.2.7. icra edilmiş əqdlər üzrə hər bir klirinq iştirakçısı üzrə hesabatların hazırlanması və onların klirinq iştirakçılarına aralarında bağlanmış müqavilədə müəyyən edilmiş müddətdə təqdim edilməsi.

3.3. Klirinq təşkilatı aşağıdakı hüquqlara malikdir:

3.3.1. hər bir klirinq iştirakçısı üçün bağlanılan əqdlərin həcmi üzrə limitlərin müəyyən edilməsi və bu barədə məlumatın müvafiq ticarət təşkilatçısına təqdim edilməsi;

3.3.2. əqdlər üzrə klirinqin icra üsullarının seçilməsi;

3.4. Klirinq təşkilatı, özündə aşağıdakıları əks etdirən "Klirinq fəaliyyətinin həyata keçirilməsi Qaydaları"-nı hazırlamalıdır:

3.4.1. klirinq təşkilatının ticarət təşkilatçısı ilə və depozitariy ilə bağlanılan müqavilələrə dair tələblər;

3.4.2. klirinq iştirakçılarının klirinq təşkilatı ilə, ticarət təşkilatçısı ilə və depozitariy ilə klirinq zamanı aralarında yaranan münasibətlərin tənzimlənməsi;

3.4.3. qiymətli kağızların və pul vəsaitlərinin qalıqlarının məbləği və onların klirinq iştirakçılarının hesablarına mədaxil edilməsi barədə məlumatın ticarət təşkilatçısından, depozitariydən və müvafiq kredit təşkilatından əldə edilməsi və işlənməsi;

3.4.4. klirinq iştirakçıları tərəfindən hesablarına təminat şəklində mədaxil edilmiş qiymətli kağızların qiymətləndirmə dəyərinin müəyyənləşdirilməsi;

3.4.5. hər bir iştirakçı üzrə əqdlərin həcmi limitinin müəyyənləşdirilməsi və bu məlumatın ticarət təşkilatçısına təqdim edilməsi;

3.4.6. ticarətin nəticələri üzrə ticarət təşkilatçısından hesabatların alınması;

3.4.7. ticarət təşkilatçısının vasitəçiliyi olmadan bağlanmış əqdlər üzrə klirinq iştirakçılarından tapşırıqların və digər sənədlərin alınması;

3.4.8. klirinq iştirakçısının kifayət qədər qiymətli kağızların və pul vəsaitlərinin olmasının yoxlanılması, hesabların, tapşırıqların və digər sənədlərin təshih edilməsi;

3.4.9. bağlanmış əqdlər üzrə tapşırıqların və digər sənədlərin depozitariya və müvafiq kredit təşkilatına təqdim edilməsinin və onlar tərəfindən bu tapşırıqların icra edilməsinin müddəti və qaydası;

3.4.10. bağlanmış əqdlər üzrə klirinq iştirakçılarına hesabatların verilməsi müddəti və qaydası;

3.4.11. bağlanmış əqdlər üzrə məlumatların təshihi zamanı uyğunsuzluq aşkar edildikdə görünən tədbirlər;

3.4.12 klirinq təşkilatı tərəfindən depozitariydən və müvafiq kredit təşkilatından hesabatların alınması;

3.4.13. bağlanmış əqdlər üzrə öhdəliklərin yerinə yetirilməməsi hallarında əmələ gəlmiş ziyanların ödənilməsi;
3.4.14. zəmanət fondunun formalaşdırılması və istifadə edilməsi;

3.4.15. kliring təşkilatına kliring iştirakçıları tərəfindən verilə bilən, əqdlər üzrə öhdəliklərin yerinə yetirilməsi üçün zəruri olan əlavə səlahiyyətlər;

3.4.16. kliring təşkilatının tarifləri.

3.5. Yuxarıda göstərilənlərə əlavə olaraq kliring təşkilatı "Kliring fəaliyyətinin həyata keçirilməsi Qaydaların"da digər şərtləri əks etdirə bilər.

3.6. Kliring təşkilatı, fəaliyyətinin həyata keçirilməsi zamanı daxili əməliyyat prosedurlarını əks etdirən reqlamenti hazırlayıb təsdiq etməlidir.

3.7. Kliring təşkilatının kliring iştirakçıları ilə bağladığı müqavilələrdə kliring zamanı aralarında yaranan münasibətlərə dair müddəalarla yanaşı aşağıdakılar da öz əksini tapmalıdır:

3.7.1. Kliring iştirakçıları və onlar tərəfindən bağlanmış əqdlərə dair məlumatın kliring təşkilatı tərəfindən məxfi saxlanmasının təminatı;

3.7.2. kliring təşkilatının və kliring iştirakçılarının öz vəzifilələrini tam yerinə yetirmədiyi halda məsuliyyəti.

3.7.3. bağlanılan əqdlərin həcmi üzrə kliring təşkilatı tərəfindən kliring iştirakçısı üçün müəyyən edilmiş limitlər;

3.7.4. kliring təşkilatı tərəfindən göstərilən xidmətlərin haqqının ödənilməsinin miqdarı və qaydası;

3.7.5. zəmanət fondunun formalaşdırılması qaydası;

3.7.6. Azərbaycan Respublikasının qanunvericiliyinə və bu Qaydalara zidd olmayan digər müddəalar.

IV. Kliring fəaliyyətinin həyata keçirilməsinin xüsusiyyətləri və risklərin idarəedilməsi

4.1. Kliring fəaliyyəti aşağıdakı üsullarla həyata keçirilə bilər:

4.1.1. sadə kliring - icraya yönəlmiş hər bir əqd üzrə kliringin həyata keçirilməsi;

4.1.2. çoxtərəfli kliring - bağlanmış əqdlər üzrə kliring iştirakçılarının hesablarında olan pul vəsaitlərinin və qiymətli kağızların həcmində nettinq vasitəsi ilə

əvəzləşdirmənin aparılması;

4.1.3. mərkəzləşdirilmiş klirinq - klirinq təşkilatı tərəfindən klirinq iştirakçılarının bağladıqları əqdləri üzrə hüquq və öhdəliklərinin əldə edilməklə, əvəzləşdirmənin aparılması. Mərkəzləşdirilmiş klirinq zamanı hesablaşmalar nettinq üsulu ilə klirinq təşkilatnın depozitariydə və müvafiq kredit təşkilatında olan hesabları vasitəsi ilə aparılır.

4.2. Bu Qaydaların 4.1 bəndində göstərilmiş klirinq üsullarının eyni zamanda həyata keçirilməsinə yol verilmir.

4.3. Klirinq iştirakçıları tərəfindən bağlanmış əqdlərin təminatı klirinq təşkilatı tərəfindən aşağıdakı qaydada müəyyən edilir.

4.3.1. tam təminatlı - klirinq iştirakçıları tərəfindən hesablarında olan pul vəsaitlərinin və qiymətli kağızların həcmində əməliyyatların aparılması;

4.3.2. qismən təminatlı - klirinq iştirakçıları tərəfindən hesablarında olan pul vəsaitlərinin və qiymətli kağızlarından artıq həcmdə əməliyyatların aparılması;

4.3.3. təminatsız - klirinq iştirakçıları tərəfindən hesablarında olan pul vəsaitlərinin və qiymətli kağızların qalığından asılı olmayaraq əməliyyatların aparılması;

4.4. Sadə klirinq təminatlı, qismən təminatlı və təminatsız əsasda aparıla bilər.

4.5. Çoxtərəfli klirinq yalnız təminatlı əsasda aparıla bilər.

4.6. Mərkəzləşdirilmiş klirinq yalnız tam və ya qismən təminatlı əsasda aparıla bilər.

4.7. Təminatsız və ya qismən təminatlı klirinqi həyata keçirən klirinq təşkilatı yalnız öz öhdəliklərini yerinə yetirmiş klirinq iştirakçısına qarşı öhdəliklərini icra etməlidir.

4.8. Klirinq təşkilatı qismən təminatlı əsasda klirinqi apardıqda, təminatın məbləği bağlanılacaq əqdin məbləğinin 30 %-dən az olmamalıdır.

4.9. Klirinq təşkilatı təminat şəklində klirinq iştirakçılarından üçüncü şəxslərin zəmanətlərini qəbul edə bilər.

4.10. Qiymətli kağızlarla əqdlər üzrə hesablaşmaları həyata keçirən klirinq təşkilatları qiymətli kağızlarla əqdlərin icra olunmaması risklərini azaltmaq üçün zəmanət fondu yaratmalıdır. Zəmanət fondunun minimal məbləği bağlanılacaq əqdlərin təmin edilməmiş hissəsindən az olmamalıdır.

4.12. Zəmanət fondunda olan vəsaitlər yalnız klirinq iştirakçısının hesablarında öhdəliklərin icrası üçün kifayət qədər pul vəsaiti və ya qiymətli kağız olmadıqda klirinq təşkilatı tərəfindən istifadə edilə bilər.

## V. Hesabat

5.1. Klirinq təşkilatı QKDK tərəfindən müəyyən edilmiş müddətdə və qaydada klirinq fəaliyyətinin həyata keçirilməsinə dair hesabatı QKDK-ya təqdim etməlidir.

## VI. Məsuliyyət

6.1. Bu Qaydaları pozan şəxslər mövcud qanunvericiliyə uyğun məsuliyyət daşıyırlar.

## VII. Qüvvəyə minməsi

7.1. Bu Qaydalar təsdiq olunduğu gündən qüvvəyə minir.